

# QAYNAR HƏYAT VURĞUNU



## Vaqif Mustafazadə İstanbulda anıldı

11 dekabr 2019-cu ildə İstanbulun Nardis Klubunda görkəmli pianoçu və caz-muğam musiqi istiqamətinin banisi, bəstəkar, SSRİ-nin Əməkdar artisti Vaqif Mustafazadənin (16.03.1940–16.12.1979) vəfatının 40 illiyinə həsr olunmuş konsert keçirilib.






Açılış mərasimində tədbirin müəllifi və layihənin rəhbəri olaraq qohumum, Azərbaycan xalqının milli sərvəti Vaqif Mustafazadənin həyat və yaradıcılığından danışarkən tədbirə toplaşanlarda gerçək ehtiram və canlı maraq müşahidə etdim. Tədbirin reallaşmasında Türkiyənin məşhur caz gitara ifaçısı Onder Fochanın zəhmətini qeyd etməmək olmaz. Türk üçlüyü məşhur bəstəkar, pianoçu və cazmen Kaan Biyikoğlu, bas-gitaraçı Şentürk Öztaş və nağaraçı Ekin Cengizhan Vaqif Mustafazadənin "Düşüncə", "Mart", "Bayatı-Şiraz", "Tam tənha" kimi əsərlərini bənzərsiz bir quruluşda ifa etdi.









Üçlüyün ifasında, eyni zamanda, görkəmli Azərbaycan bəstəkarı Tofiq Quliyevin "Sənə də qalmaz" kompozisiyası, Azərbaycan xalq mahnıları, caz standartları, Kaan Bıyıkoğlunun müəllif əsərləri və Bel Bartokun əsərlərinin caz aranjimanları da təqdim olundu.

Konsertin qonağı Azərbaycan bəstəkarı və jazz'meni, Vaqif Mustafazadənin tələbəsi İlyas Mirzəyev "Blue, Red, Green" jazz kompozisiyasını icra etdi.

"V.Mustafazadənin anım gecəsini böyük həvəslə gözləyirdim. Onun nəfis və misilsiz musiqisini ifa etmək mənim üçün böyük şərəfdir. Böyük məmnuniyyətlə öz əməkdaşlarımla onun kompozisiyalarını və Tofiq Quliyevin "Sənə də qalmaz" mahnısı əsasında bəstəmizi ifa etdik. Xatirə gecəsinin keçirilməsində Nigar Babazadəyə və Öndər Focana öz təşəkkürümü bildirirəm"- deyərək K.Bıyıkoğlu tədbir haqda öz təəssüratını bölüşdü.

Artistlərin ifası Vaqif Mustafazadə haqqında foto və videomateriallar ilə müşayiət olundu və tamaşaçılar tərəfindən alqışlarla qarşılandı.

**Nigar Babazadə**
Layihənin müəllifi və rəhbəri